*Bəkirov N. Molla Cümənin dastanları*
*//Elmi əsərlər, 2019,2(9), iyul-dekabr, s.54-60.*

UOT 821.512.162

**Novruz Bəkirov**
*doktorant,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
e-mail: bekirov.novruz@mail.ru

# MOLLA CÜMƏNİN DASTANLARI

**Açar sözlər:** *Molla Cümə, Azərbaycan ədəbiyyatı, ədəbi irs, dastan, asıq poeziyası.*

***Giriş***:*Molla Cümə dastan yaradıcılığına xüsusi yer ayırmışdır.Onun indiyədək nəşr edilmiş "Cəlali Məhəmməd və Tavat xanım", "Baxış bəy və Leyla xanım", "Həsən əminin öküzü" və "Sayat bəy və Sayalı xanım" dastanlarının adını çəkmək olar. Molla Cümənin ədəbi-irsinin tədqiqi zamanı tərəfimizdən bir sıra yeni dastanları aşkar edilmişdir. Əldə etdiyimiz yeni tapılmış "Molla Cümənin İsmi Pünhanla son vidası", "Mahmud və Nigar xanım", "Şah Səməd və Nigar xanım", "Zinhar və Mahəfrus", "Şah baba və Pəri xanım" dastanlarını göstərə bilərik. Adları sadalanan dastanların həcminə nəzər yetirdikdə Molla Cümənin dastan yaradıcılığında kifayət qədər fəal olduğunu görürük.*

Onun dastanlarında Azərbaycan xalqı ilə bərabər ölkəmizin ərazisində yaşayan digər xalqların mədəniyyətlərinə hörmətlə yanaşılmış, bu əsərlərdə baş verən hadisələr böyük ustalıqla , sadə, axıcı dildə təsvir edilmişdir.

Təəssüflə qeyd etmək istəyirik ki, Molla Cümənin dastanlarının hamısı dövrümüzə qədər gəlib çıxmamışdır. Molla Cümənin dastan yaradıcılığı araşdırılarkən ilk öncə onun nəşr edilmiş dörd dastanını nəzərdən keçirmək istərdik. Bunlar "Cəlali Məhəmməd və Tavat xanım", "Baxış bəy və Leyla xanım", "Həsən əminin öküzü", "Sayat bəy və Sayalı xanım" dastanlarıdır.

"Cəlali Məhəmməd və Tavat xanım" dastanı janr etibarı ilə məhəbbət dastanı olaraq iki qonşu xalqın azərbaycanlılarla gürcülərin bir-birinə bəslədiyi dostluq münasibətini əks etdirir.

Əsas süjet xətti belədir: Gürcü knyazı Təbrizli tacir Bəzirganı qonaq çağırır. Tacir qonaq gələrkən çoxlu qiymətli hədiyyələr gətirir. Adətə görə gürcü knyazı ailəsilə birlikdə hədiyyələrə baxırlar. Görürlər ki, Bəzirgan knyazın bütün var-dövlətindən daha çox qiymətli hədiyyələr gətirib. Bunun müqabilində knyaz çox götür-qoy etdikdən sonra Bəzirganın xəbəri olmadan qızı Tavat xanımı onun oğlu Cəlali Məhəmmədə ərə vermək məqsədilə onlarla göndərir. Bəzirgan bu hadisədən ancaq yolda xəbər tutur. O, hadisədən xəbər tutan kimi Təbrizə toy hazırlığı görmək üçün xəbər göndərir. Onlar Təbrizə çatırlar. Toy izdivacı baş tutur. Ancaq Cəlali Məhəmməd yerli adətlərə görə xristian qızı ilə ailə həyatı yaşamağı özünə yasaq sayır. Onlar yeddi il bir yerdə olsalar da ailə həyatı yaşamırlar. Bütün bunlardan bezən Tavat xanım qaçıb evlərinə qayıdır və hadisəni olduğu kimi knyaza danışır. Knyaz Tavat xanıma əvvəlki nişanlısı ilə toy mərasimi düzənləyir. Cəlali Məhəmməd yerli adət-ənənələr, din təəssüfkeşi qarıların iradəsinə zidd olaraq ailəsini qaytarmaq üçün Tavat xanımın arxasınca yollanır. Böyük çətinliklərdən sonra Cəlali Məhəmməd Tavat xanımı geri qaytara bilir.

Gürcü qızı Tavat xanım azərbaycanlı Bəzirganın, onun oğlu Cəlali Məhəmmədin və ailəsinin heç bir şeydə günahı olmadığını, sadiq, qayğıkeş olduqlarını başa düşür. Cəlali Məhəmməd Tavat xanımla birlikdə şər qüvvələri məğlub edir və xoşbəxt həyatlarını yaşamağa qərar verirlər. [1.s.154-175]; [ 2.s.205-222].

**"Baxiş bəy və Leyla xanım"** dastanı quruluş etbarilə mükəmməldir və sadə dildə yazılmışdır. Əsər hər bəndi 4 misra olmaqla 13 bəndlik Ustadnamə, 120 bənddən ibarət qoşmalardan, deyişmə və boylardan *(təhkiyə hissəsindən)* ibarətdir.

Əsərin əsas süjet xətti belədir: Yəmən şəhərində Əmir şah adında bir padşah olur. Onun oğlu Baxış bəy Əmir şahın yanında saxladığı Molla Humayın qızı Leyla xanıma aşiq olur. Həm oğlan, həm də qız çox yaxşı başa düşürlər ki, bu icdivac çox çətin ki, baş tuta. Ancaq buna baxmayaraq onlar bir-birlərini sevməkdə davam edirlər, qərara gəlirlər ki, hər ikisi bu barədə analarına bildirsinlər. Anaları xəbər tutan kimi onlar bu məsələnin ədalətli həlli üçün birgə yollar aramağa başlayırlar. Analar uşaqlarının istəklərini ərlərinə xəbər verirlər. Hiyləgər şah oğlunu özündən uzaqlaşdırmamaq üçün-Molla Humaya deyərəm , o da imtina etməz deyərək cavab verir. Hiyləgər molla isə başa düşür ki, şah üzdə razı olsa da həqiqətdə belə bir izdivaca razı olmayacaq, qızılı, pulu, özü ilə aparılması mümkün olan hər şeyi yığışdıraraq səhər ala toranlıqda ikən Tehrana yola düşür. Baxış bəy səhər Leyla ilə görüşə gələrkən onların gecəylə köçdüklərini öyrənir. Tez yığışaraq onların arxasınca yola düşür. Yolda canişinlər Molla Humayın əmrilə onu tutub zindana salırlar. Canişin Baxış bəyin günahsız bir adam olduğunu görür, nəhayət onu azad edir. Bu işdə Leyla ona kömək edir. Molla Humay yenə qaçaraq gəlib çatır Tehrana. Baxış bəy də gəlir, ancaq Leylanın qaldığı yeri tapa bilmir. O yolda bir qarı nənəyə rast gəlir. Çox mübahisələrdən sonra qarı nənə Leylanın qaldığı yeri bildiyini söyləyir, Baxış bəylə onu görüşdürəcəyinə söz verir. Əvəzində hiyləgər qarı həm Baxış bəydən, həm də Leyla xanımdan qızıl pul alır. Nəhayət, bir çox çətinliklərdən sonra Baxış bəylə Leyla xanım görüşürlər və birlikdə qaçırlar. Beləliklə, Baxış bəy və Leyla xanım öz arzularına qovuşurlar. Əmir şah isə oğlunun salamat qayıtdığına görə sevinərək qırx gün, qırx gecə mahalda nə qədər çalan, oxuyan varsa yığaraq ziyafət düzəldir, oğlu Baxış bəylə Leyla xanıma toy edir.[1.s.127-153]; [3.s.557-585].

**“Həsən əminin öküzü”** dastanı hər bəndi 4 misra olmaqla 13 bəndlik ustadnamə və 24 bəndlik qoşma və boylardan *(təhkiyə hissəsindən)* ibarətdir. Dastanda baş verən hadisələr satirik nağıl obrazları xarakterlərinə görə münasibətlərində ziddiyət təşkil edir.

Dastanın əsas süjet xətti belədir: Həsən əmi nə qədər aciz, korafəhmdirsə, qadını bir o qədər diribaş, irəlini görən, praktikdir. Qadındakı aktivlik simpatiya, kişidəki passivlik yumorla verilib. Həsən əmi çox pul verərək əvəzində arıq, xəstə öküz alır, pulun dəyərini anlamayıb yalnız sayını söyləyir ( on pul deyərək durur), başqa sözlə çox sadəlövh insandır. Dastanda baş verən hadisələrin ideyası da budur ki, həyatda praktik olmaq lazımdır. Həsən əmi xəstə öküzlə aldadıldığını bildikdən sonra onu bir aya bəsləyib, kökəldəcəyini, öküz öldükdən sonra isə dərisini soyub satacağını düşünür. Bu isə onun xaraktercə nikbin olduğunu göstərir. Heç bir şey onu həyatdan küsdürmür. Bu yumoristik nağıl-dastanın gülüş obyekti Həsən əmidir. Onun gülüş obyekti olan tərəflərini göstərmək üçün əks xarakter olan qadın surəti verilmişdir. O, aktivdir. Ehtiyacı ödəmək, inək almaq üçün o, qənaətlə pul yığır, ərinin tərsliyini pisləyir. Həsən əminin qardaşı oğlu da iş bacarmayan, sadəlövh əmisini tənqid edir. [1.s.195-207]

**“Sayat bəy və Sayalı xanım”** dastanı hər bəndi 8 misra olmaqla 6 bəndlik Ustadnamə, 14 bəndlik qoşma, hər bəndi 5 misra olmaqla 10 bəndlik müxəmməs formalı və 10 bəndlik qoşma formalı boydan *(təhkiyə hissəsindən)* ibarətdir. Əsər əfsanə xarakteri daşıyır.

Dastanın əsas süjet xətti belədir: Uzun macəralardan sonra sevgililər qovuşurlar. Qəhrəmanlar daim maneələri dəf etməklə şər qüvvələrə qalib gəlir və öz arzularına çatırlar. Sevənlərin öz sevgilərinə qovuşmasında ən ağır vəziyyətdən çıxmasında onlara ilahi qüvvəyə malik qoca dərviş kömək edir. Obrazların özlərində kifayət qədər aktivlik yoxdur. Onların köməyinə həmişə yuxular, dərviş və nurani qoca çatır. Sayat bəyin Hacı Müslümlə Yəmən şəhərinə ticarətə gələrkən yolda Sayat bəy gördüyü yuxu *(bir qocanın qızıl alma uzadıb, geri alması)* əsas mövzunun başlanmasına hazırlıqdır. Paşa qızının Sayat bəyi sevməsini bilən Hacı Müslüm geri dönərkən, yolda yenə Sayat bəy yatıb yuxu görür. Yuxuda əvvəlki qoca ona cənnət şərabı içirir və Sayalı xanımı göstərir. Bu yuxunu həmin vaxt Sayalı xanım da görür. Bu, adı

çəkilirsə də, əslində bir sıra məhəbbət dastanlarındakı rast gəldiyiniz sevgililərin yuxuda bir-birinə buta verilməsi hadisəsidir.

Dastanın əsas obrazları Sayat bəy, Sayalı xanım və xoca Müslümdür. Sayat bəy dindar, passiv bir gəncdir. Sayalı xanım hakim mühitdə böyümüş çılğın xasiyyətli qızdır, aktivdir.

Xoca Müslüm isə dindar, ehtiyatkar bir hacıdır. Nəhayət sonda gənclər evlənir. [1.s.195-207]; [3.527-557].

## MOLLA CÜMƏNİN NƏŞR EDİLMƏMİŞ DASTANLARI.

Tərəfimizdən Molla Cümənin dastanları tədqiq edilərkən **beş yeni nəşr edilməmiş** əsəri aşkar edilmişdir. Bu əsərlər barədə məlumatı təqdim edirik.

**"Molla Cümənin İsmi-Pünhanla son vidası "** dastanı tam həcmdə bizə çatmasa da əlimizdə olan parçadan əsərin əsas süjet xəttini müəyyən etmək mümkündür. Hadisələr müəllifin doğma vətəni Layisqidə baş verir.

Əsərdəki hadisələrin qısa məzmunu belədir: Molla Cümənin sevgilisinin vaxtsız ölümü onu üzgün hala salır, hətta o ətrafında baş verən hadisələri belə görmür. Bundan sonra o, sevgilisini **"İsmi Pünhan"** adlandırır, onun dərdindən dəli-divanə olur. Molla Cümə sevgilisinin vaxtsız ölümü səbəbindən ilk məhəbbətinə qovuşa bilmir. Həyatındakı boşluğu doldurmağın çıxış yolunu dərvişlikdə görür. Əsər təsirli şeirlərlə zəngindir. [4.1.-s.66-68].

**"Mahmud və Nigar xanım"** dastanı məzmunca zəngin dastanlarından biridir. Əsərin əsas süjet xəttini Mahmudla Nigar xanımın sevgisi təşkil edir.

Hadisələr İsfahan şəhərində Xoca Vahid adlı bir kişi və onun Mahmud adlı bir oğlunun ətrafında cərəyan edir. Mahmud böyüyüb həddi-buluğa çatanda İstambullu Güldüm padşahın qızı Nigar xanımı yuxuda görüb aşiq olur. Bu hadisədən sonra Mahmudun əhvalı dəyişir və daim fikirli gəzir. Valideynlər oğullarının daim belə fikirli olmasının səbəbini soruşurlar. Mahmud valideynlərinə aşiq olduğu və sevgilisinin İstambulda yaşadığını bildirir. Valideynlər Mahmudun bu hala düşməsinin səbəbini bildikdən sonra oğullarına kömək etmək üçün onun İstambula getməyinə icazə verirlər. Mahmud bu şəhərdə bir çox çətinliklərlə rastlaşır. Nigar onu bu çətinliklərdən qurtarmağa çalışsa da, qızın atası Güldüm Paşa bu izdivaca mane olur. Paşa Mahmudun boynunu vurmağı əmr edir. Nigar bu dəfə də Mahmudun xilası üçün yollar axtarır və tapır. Nigar xanım adamlarına Mahmudu çimizdirib yanına gətirməyi əmr edir. Hər iki sevgili görüşərkən ilan kimi bir-birinə sarmaşırlar. Nigar xanım Mahmuda bir qırağı naxışlı yaylıq bağışlayır. Əhvalatdan xəbər tutan Güldüm Paşa əmr edir ki, Nigarı Mahmudla bir sandığa qoyub dəryaya atsınlar. Paşanın əmrinə görə Nigar ilə Mahmudu sandığa qoyub dəryaya atırlar. Dənizin kənarında bihuş halda qoyulan Mahmudun dostu Qənbər özünə gəldikdən sonra sandığın üstündə oturur. Sandıq su ilə gedərək İstanbulda Şıx Nəsir adlı bir şəxsin bağının bərəsinin ağzında durur. Bağban suyun kəsildiyini görərək bağdan bayıra çıxır. Görür ki, bir sandıq bərənin deşiyini kəsib, üstündə də bir nəfər oturmuşdur. Sandığı bağa gətirib ağzını açdıqda görür ki, bu sandıqda iki cavan qol-boyun olub tər tökə-tökə yatırlar.

Bağban Mahmudu, Nigarı və Qənbəri Şıx Nəsirin yanına aparır. Şıx Nəsir Qənbərdən halı-qəziyyəni öyrənib qırx gün, qırx gecə toy çaldırır, Nigarla Mahmudu evləndirir. Toydan sonra Şıx Nəsir Mahmuda deyir ki, oğul, budur, siz muradınıza çatdınız. İndi istəsəniz burada qalın, istəsəniz ata-ananızın yanına gedin, ixtiyar sizindir.

Mahmud Şıx Nəsirlə halal-himmət edib Nigarla vətəninə doğru rəvan olur .

Bunlar bir şəhərə çatıb görürlər ki, bu şəhərdə padşah ölmüşdür. Yenidən padşah seçmək üçün isə adətə görə quş uçurdurlar. Quş havada dövrə vurub gəlib kimin üstünə qonarsa o da padşah seşilərmiş. Onların da Padşah seçmək üçün uçurduqları quş Mahmudun başına qonur. Quş uçuranlar quşun Mahmudun başına qonmasını hesaba almırlar və aparıb onu bir xaraba

dəyirmana salırlar. Quşu təkrar uçurdurlar. Quş yenə də dəyirmanın başına qonur. Şəhərin böyükləri deyirlər ki, yəqin bu adam nəcibzadədir. Belə olmasa quş nahaqdan onun başına qonmaz. Ona görə Mahmudu bu vilayətin şahı seçirlər. Mahmud taxta çıxır və Qənbəri özünə vəzir təyin edir" [4.1.-s.69-86].

**"Şah səməd və Şəmsi xanım"** dastanında hadisələr Zər-zər şəhərində övladı olmayan Malik padşahdan bəhs olunur. Günlərin bir günü padşah övladsızlığını düşünüb qəmli halda oturubmuş. Vəzir padşahın qəmginliyini anlayıb bunun səbəbini soruşur. Padşah cavab vermir. Vəzir ona deyir: Şah, qurbanın olum mənim də sənin kimi züriyyətim yoxdur. Gəl bir müddət səyahətə çıxaq, gözümüz könlümüz açılsın. Padşah razı olub vəzirlə bərabər səyahətə çıxır. Səyahət zamanı bir bulaq başında istirahətə oturub yatırlar. Yuxuda padşah bir dərviş görür. Dərviş padşaha iki alma təklif edir ki, vəziri ilə bərabər nuş eləsinlər. Bu hadisədən sonra onların övladı olur. Şah ayılıb yuxusunu vəzirə nəql edir. Vəzir deyir ki, Şah, deyəsən, yuxunuz müstəcəb olacaq. Bunlar şad-xürrəm evlərinə qayıdırlar.

Doqquz ay, doqquz gün, doqquz saatdan sonra Şah və vəzirin hərəsinin bir oğlu olur. Şah oğlunun adını Şah Səməd, vəzir isə Abdulla qoyur. Bu uşaqlar on beş yaşına çatırlar.Günlərin bir günü ŞahSəməd aləmi-röyada ikən Xızır peyğəmbər ona bir badə təklif edir ki, nuş eləsin. Bu badə Ərzan şəhəri padşahının qızı Şəmsi xanımın şirnisiymiş. Başqa sözlə Şəmsi xanımla ona buta verilir. Şah Səməd badəni içən kimi bihuş düşür. Abdulla şah Səmədin bu halını görcək tez Şaha xəbər aparır ki, oğlu bihuş olub. Şah dərhal taxtdan sıçrayıb oğlunun yanına gedir, onun başını dizinin üstünə alıb çox narahat halda oğluna müraciət edir....

Sonda Şah Səməd Şəmsi xanıma qovuşur. Şah onlara qırx gün, qırx gecə nağara-zurnayla toy-büsat edir...[4.1.-s.87-107].

**"Zinhar ilə Mahəfrus"** dastanındakı hadisələr Xorasan şəhərində Şövkət paşa adlı padşahın ətrafında cərəyan edir. Bir gün bu padşah namaz üstə dua edir ki, ya Allah, sən mənə bir oğul kəramət elə ki, mən öləndən sonra yerimi tutsun, səltənətimi idarə etsin. Şövkət paşa namazdan sonra öz vəziri Yaqubu yanına çağırıb təklif edir ki, onunla dərviş paltarında səyahətə çıxsın. Vəzir razı olub şahla bərabər dərviş libası geyib səyahətə çıxır. Yolda dərvişə rast gəlirlər. Padşah dərdini dərvişə danışan kimi o yoxa çıxır. 9 aydan sonra padşahın və vəzirin hərəsinin bir oğlu olur. Onlar uşaqların bir yaşını təntənə ilə qeyd edərkən dərviş peyda olur. Padşah dərvişə təşəkkürünü bildirir. Padşah oğlunun adını dərvişin təklifilə Zinhar qoyur. Oğlan böyüyür, Hindistan padşahının qızı Mahəfrusa vurulur. Atası razı olmur, buna baxmayaraq Zinhar sevgisinə qovuşur. Bu xəbər Hindistan padşahına çatan kimi şah əmr verib oğlanı qolu bağlı zindana saldırır.

Mahəfrus atasının ayağına düşərək yalvarmağa başlayır ki, Zinharı buraxdırsın. Şah bundan qəzəblənib qızını da həmin zindana saldırır. Bunlar zindanda bir-birinə sarmaşaraq ağlamağa başlayır. Bu vaxt bir nurani şəxs zahir olur və deyir: Balalar, heç fikir etməyin, mən sizi qurtarmağa gəlmişəm. Durun ayağa. Zinhar ilə Mahəfrus ayağa qalxır, dərviş əlindəki əsanı divara vurur. Divar yarılıb yol açılır. Yolun başında bir ağ atın dayandığını görürlər. Zinhar və Mahəfrus həmin ağ ata minib bir göz qırpımında Xorasana çatırlar. Xorasanda Şövkət paşa oğlunun qayıtdığını eşidib çox sevinir. Yolu bəzəyərək böyük təmtəraqla oğlunu və gəlnini qarşılayır. Qırx gün qırx gecə toy çalınır. Zinharla Mahəfrus bir-birinə qovuşurlar[4.1.s.108-128].

"**Şah baba ilə Pəri xanım**" dastanındakı hadisələr Xudat şəhərində baş verir. Xudat padşahının iki oğlu var idi. Bunlardan biri -Şah Baba öz oğlu, o biri isə arvadının əvvəlki ərindən olan oğlu idi.

Bir gün Şah Mirzə padşah xəstələnib yamanca düşür. Vəsiyyət edir ki, məndən sonra səltənətə Şah Əli padşah sahib olmalıdır. Şah Mirzə padşahın öz oğlu Şah Baba bu vəsiyyətdən

narazı qalıb atasına kin bəsləyir. Başına atasından narazı adamlarları toplayır, öz qoşunu ilə dağlara çəkilir və quldurluqla məşğul olur..

Şah Baba bir dəfə qoşunu ilə bir dağın başında gecələrkən bərk çovğun, boran qalxıb qoşunu qırır. Özü isə bir qayanın dibinə girib atı ilə xilas olur. Qayanın altında gözünə yuxu gedir və röyada görür ki, bir nurani şəxs ona badə verib deyir: "Oğul bu badə "Yeddi div" qalasında əsir olan Xas Məmmədin qızı Pəri xanımın şirnisidir. Al iç, onu sənə buta verirəm. Ələ keçirsən muradına çatacaqsan". Yuxudan oyandıqdan sonra Şah Baba yeddi divin qalasına yola düşür.

Pəri xanıma da Şah babanın surəti göstərilmişdir. Şah babanı eyvanda gələn görüb ona deyir: "Oğlan, gizlən, divlərin indi ovdan qayıdan vaxtıdır". Pəri Şah sonra Babaya belə deyir: "Oğlan, yaxşı olar ki, sən tez özünü yetir mənim atamın yanına, mənim burada olmağımı ona söylə və qoşun götürüb məni azad et". Şah Baba Pərinin üzüyünü alıb Xas Məmmədə xəbərə gedir. Bir kənddə gecələyəsi olur. Bir qarının evinə qonaq düşür. Bu qarı Pərinin yurdunu tapmaqda ona kömək edir. Şah Baba Yəmən şəhərində Pəri xanımıgilə çatır. Qızın anası onun barmağındakı üzüyü görən kimi tanıyır. Şah Baba qızı qurtarmaq üçün bir çox əziyyətlərə qatlaşmalı olur. Nəhayət, yeddi divin qalasına çataraq atını otlağa buraxır. Sonra Şah Baba qoşunu Pəri xanımın məsləhətilə geri, öz vətəninə göndərir, özü isə Pəri xanımla oradan qaçıb gəlirlər həmin qarının evinə. Sonra Şah Baba ovçudan pul ilə at alıb minir və bir başa qarının evinə çaparaq oradan Pərini də atının tərkinə mindirib Xudat şəhərinə rəvan olur.

Xudat şəhərində böyük şənlik edərək əvvəl Şah Babanın toyunu edirlər, toydan sonra isə Şah Mirzə öldüyündən Şah Babanı padşah, Əlini isə onun vəziri təyin edirlər[4.1.s.129-140].

***Nəticə:****Azərbaycan xalqının yaratdığı ədəbi, mədəni və folklor nümunələri bəşər sivilizasiyasının keçib gəldiyi tarixi-ictimai mərhələlərin bədii ifadəsini özündə yaşadır. Bu sahədə misilsiz xidmətləri olan Molla Cümə yardıcılığı Azərbaycan ədəbiyyatında müxtəlif üslub və janrlarda, eləcə də dastan janrında yazıb-yaradan məhsuldar, tanınmış şairlərimiz və ustad aşıqlarımızdan biri olmuşdur. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış görkəmli ustad aşıq Molla Cümənin zəngin ədəbi irsi olmuşdur. Şairin ədəbi irsini araşdırarkən məlum olur ki, o, dastan yaradıcılığına xüsusi fikir vermişdir. Tədqiqatçılar bu gün də Molla Cümənin ədəbi və mədəni irsini öyrənərək bir yerə toplamaq və xalqa çatdırmağı qarşılarına vəzifə qoymuşlar və özlərinə borc bilirlər. Bu sahədə Molla Cümənin dastan yaradıcılığına xüsusi yer ayırmasına baxmayaraq, onun yaratdığı bütün dastan və nağıllarının hamısı hələlik tədqiq edilməmişdir.*

*Onun indiyə qədər çap edilmiş dastanlarından "Cəlali Məhəmməd və Tavat xanım", "Baxış bəy və Leyla xanım", "Həsən əminin öküzü", "Sayat bəy və Sayalı xanım" dastanlarını göstərmək olar. Molla Cümənin əsərlərinin tədqiqi zamanı onun bir sıra yeni, qeyri-mətbu dastanları tərəfimizdən aşkar edilmişdir. Bunlar aşağıdakılardır: "Molla Cümənin İsmi Pünhanla son vidası", "Mahmud və Nigar xanım", "Şah Səməd və Nigar xanım", "Zinhar və Mahəfrus", "Şah baba və Pəri xanım" dastanları. Azərbaycan məhəbbət dastanlarına məxsus ənənələri davam etdirən bu əsərlərdə Molla Cümənin özünəməxsus üslubu müşahidə olunur. Şair bir sıra dəyərli lirik şeirlərini bu dastanlarına daxil etmişdir.*

*Molla Cümənin yaratdığı dastanların digər dastanlarla ümumi oxşar cəhətlərinə rast gəlinsə də, özəlliyi ondan ibarətdir ki, onun yaratdığı dastanlarda, Azərbaycan xalqı ilə bərabər ölkəmizin ərazisində yaşayan digər xalqların mədəniyyətlərinə hörmətlə yanaşmış, bu əsərlərdə baş verən hadisələri böyük ustalıqla , sadə, axıcı dildə təsvir etmişdir.*

*Ümumiyyətlə, son zamanların axtarışları Molla Cümə irsinin indiyədək bildiyimizdən xeyli zəngin olduğunu ortaya qoyur. İnanırıq ki, Molla Cümə əsərlərinin tam olaraq tədqiqiqi onun yaradıcılığının Azərbaycan ədəbiyyatında əsil layiqli yerini tutmasına kömək edəcəkdir.*

**Ədəbiyyat :**

1.Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. 12 cilddə. C.9.- Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid / tərt., elmi red.: Gülbəniz Babaxanlı. Bakı: Çaşıoğlu, 2011.

2. Bəkirov Novruz. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı. Bakı, "Nafta-Press", 2018, s.205-223.

3. Molla Cümə. Əsərləri /tərt.: Paşa Əfəndiyev. Bakı : "Şərq-Qərb", 2006, s.527-557 ; s.557-585.

4. Molla Cümə. Dastanlar. Əlyazma, məqalənin müəllifinin şəxsi arxivi,s.66-68 ; s.69-86 ; s.87-107 ; s.108-128 ; s.129-140.

***Новруз Бекиров***

**ДАСТАНЫ МОЛЛЫ ДЖУМЫ**

**Резюме**

Созданные азербайджанским народом образцы литературы, культуры, фольклора, воплощают в себе художественное выражение исторических и социальных этапов, через которые прошла человеческая цивилизация. Творчество Моллы Джумы, являющегося одним из представителей классической азербайджанской ашугской поэзии второй половины XIX– начала XX веков, по своей тематике разнообразно. Но основное место в нем занимает любовная лирика. Поэт оставил после себя богатое литературное наследие, которое и сегодня изучается исследователями для предоставления их результатов широкой общественности.

Результаты исследований творчества Моллы Джумы, показывают, что особое место в нем занимает жанр дастана. В статье освещаются как изданные дастаны Моллы Джумы, так и те, которые были выявлены в результате исследований и еще не изданы. В дастанах Моллы Джумы встречаются общие сходства с другими дастанами, но их особенность заключается в том, что здесь, наряду с культурой азербайджанского народа автор уважительно относится и к культуре других народов, проживающих на территории нашей страны, и изображает происходящие в этих произведениях события с большим искусством и на простом, легко воспринимаемом читателем языке.

Однако исследования последних лет выявили, что наследие Моллы Джумы значительнее богаче, чем мы знаем. Безусловно, более широкое исследование деятельности Моллы Джумы, поможет занять достойное место его творчеству в азербайджанской литературе.

**Ключевые слова:** *Молла Джума, азербайджанская литература, литературное наследие, дастан, ашугская поэзия.*

***Novruz Bekirov***

**MOLLA JUMA's DASTANS**
**Summary**

The samples of literature, culture, folklore created by the Azerbaijani people embody the artistic expression of the historical and social stages through which human civilization passed. The creativity of Molla Juma, who is one of the representatives of classical Azerbaijani ashug poetry of the second half of the 19th – beginning of the 20th centuries, is diverse for its themes.

But love lyrics takes the main place in Juma's creativity. The poet left us a rich literary heritage, which is still being studied by researchers to present their results to the general public.
Researching Molla Juma's activities, we reveal that the dastan genre takes a special place in it. The article highlights both the published dastans of Mall of Juma and those identified in the research and have not been published yet. Molla Juma's dastans have common similarities with other dastans, but differ with Molla Juma's respect to the other cultures of the other nations living in the territories of Azerbaijan. Events taking place in these works were written with great mastership and in a simple language that is easily understood by readers.
However, researhces of recent years have revealed that the literary heritage of Molla Juma is richer than we know. Of course, a broader study of his activities will help to define Molla Juma's worthy place in the Azerbaijani literature.

**Key words:** *Molla Juma, Azerbaijani literature, literary heritage, dastan, ashug*

Redaksiyaya daxil olma tarixi: 04.06.2018
Çapa qəbul olunma tarixi: 27.07.2018

Filologiya elmləri doktoru **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.